

***MƏLAHƏT SOLTANQIZI QƏDİROVA***
***filologiya üzrə fəlsəfə doktoru***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***"Qızıl Qələm" mükafatı laureatı,***
***şair***

# Xəyanətin bədəli

***(poema)***

*(Əvvəli ötən sayımızda)*

Bu anlamsız dünyada
hərə öz hayındadı
Hərə öz iş- gücündə,
qazancın dalındadı
Açılar-açılmaz sabahın gözü
Qaynar qazan kimi qaynayır şəhər.
Rahatlıq bilmədən çalışır hamı
Təki süfrəsində hər nemət olsun.
Övladları aclıq nədir bilməsin
Qonşudan-qohumdan qalmasın dala
Dar günçün azacıq pul atsın dala
Dünyada kimsəyə möhtac olmasın
Biz belə yaşadıq, belə də gördük
Qənaət elədik, borca girmədik
Borclu olanların yuxusu olmaz
Borclu olanların kisəsi dolmaz
Borclu olanların hörməti olmaz
Ən böyük var-dövlət qənaət imiş
Ən bahalı sərvət qənaət imiş
* * *
Şahnabat çarəsizdi...
Bütün günü iş aradı.
Yorulub taqətdən düşənə qədər
Evinə qayıtdı gün bitər-bitməz.
Kirayə qaldığı evin sahibi
Bir qoca nənəydi, adı Bəsirə.
Köhnə çarpayıda keçərdi günü,
Iş-gücə əlini heç bulamazdı.
Nəvəsi baş çəkirdi
Gündə bir yol yanına
Evdə hər şey yerində
Nəvə salmış sahmana.
Şahnabat qocanın halını sorub,
Otağına çəkildi, yorulmuş yaman.
Düşüncələr yenə də
onu qoynuna almış,
Bu aralar könlündə
baş qaldıran duyğular,
Onu hardan haraya
qanad çalıb aparmış
Qonşulardan mehriban
münasibət görmüşdü.
İnsanlığı hər zaman
onlardan öyrənmişdi.
Atasının dar gündə köməyinə çatdılar.
Qonşuluq necə olur, o günlər anlatdılar.
Hər əziz yeməkdən pay gətirdilər.
Xəstəni əziz tutub, halını soruşdular
Yastığının altına
hərdən xərclik qoydular.
Ana təsəlli tapdı yaxşılığı görəndə
O da borclu qalmadı, bacardığın elədi.
Corab hördü, papaq hördü
Qonşuların hər birinə
Kənddə həyat başqadı...
İnsanlar mehribandı..
Qonşular bir-birin əziz tuturlar,
Qonaq-qaralıdı kənddə ocaqlar.
Sevinci, kədəri birgə yaşarlar.
Kənddə bişən çörəyin ətri-tamı başqadı
* * *
Yarımca il ötmədi, itirdi atasını
Ölümün əllərindən
almaq olmaz insanı.
İşin-gücün əlindən bir zamanı olmadı
Sonuncu il doyunca görmədi atasını
Bu ölümlə barışmaq yaman arına gəldi
Kasibçiliq üzündən çəkdikləri nə idi?...
* * *
Şahnabat qayıtmışdı ata yurduna
Atasının dəfnindən artıq həftələr ötmüş
Köhnə xatirələr, ah keçən günlər...
Bu evin nə gözəl günləri vardı
Hər gün atasının işdən gəlişi
Bu evdə, ocaqda asta yerişi
Anasının qəhqəhəli gülüşü
Ata evə gəlincə elədiyi biş- düşü
Bir süfrə arxasında nahara oturmalar
Atasının ovcuna doldurduğu xurmalar
"Yaxşı ye, tez böyü ağıllı qızım
Ananın qolundan, qanadından tut"
Tez-tez bu sözləri söylərdi ata
- Nədən belə deyirdin
ay mənim qərib atam-
* * *
Aldandı Şahnabat şəhərli bir oğlana
O, məsum çöhrəsində
kədər yuva bağladı
Günah nədi bilməzdi,
yalan nədi bilməzdi
Bu saflığın içində aldandı şirin dilə
Yanağından axıtdı acı yaş gilə-gilə
Demək dünya dediyin həm hiylə,
həm kələkmiş
İnsan var acımazmış, insanlığa ləkəymiş
Atasının ölümü ağrıtmışdı canını
İndi başqa acılar dondurmuşdu qanını
Gəncliyin təravəti onu toruna saldı
Bətnində körpəsiylə ortada təkcə qaldı
Aldandı, yuxu kimi yaşandı bu olanlar
İndi ona inanmaz gendən durub baxanlar
Gizlədi bu halını, kimsəyə söyləmədi
Doğurdu körpəsini, o hamıdan xəbərsiz
Bələdi, bağladı, qoyub çantaya
Səhər dənizə gəldi
Sakit, səssiz ləpələr bir-birini qovurdu
Sabahın soyuğunda o körpəni çıxardı
Gözlərini qırpmadan canının bir parçasın
O, dənizə tulladı
Əlində boş çantayla dənizdən aralandı
* * *
Sanki gözü görmürdü
Nizamsız addımlarla
o məkanı tərk etdi
Bu qədər adamların,
bu boydaca şəhərin
Bu boydaca dünyanın
bundan xəbəri yoxdu
Bu ağır cinayətin canısı bir anadır
Doğduğu körpəsinə
bir udum süd vermədi
Heç üzünə baxmadı, sinəsinə sıxmadı
Qoxusunu alsaydı, bu faciə olmazdı
Addım-addım qayıdır, yaşadığı məkana
Əl-ayağı boşalmış, kirpikləri yaşarmış
Sanki bir heykəl kimi,
cismi daşdan yonulmuş
İşlədiyi cinayət bir körpənin ölümü...
Bətnində bəslədiyi,
nifrətlə gözlədiyi
Gərəksiz əşya kimi,
gözlərinə baxmadan
Məsum bir yavrunun səsi çıxmasın deyə
Ağzın-burnun bağlamış
Öz canından, qanından
yaranan bir körpəni
Lazımsız əşya kimi dənizə tolazlamış
İçindəki sönməyən
o çeynənmiş nifrəti
Aldanışdan yaranan bu acı hekayəti
Kimsə duymasın deyə
Öz bağrına daş basmış
Günahsız bir körpəni
hirsinə qurban vermiş
Şərəf, qürür, ləyaqət
mərhəmətə güc gəlmiş
* * *
Şahnabat uzaqlaşdı
Sanki dəniz dil açdı.
Ləpələr dil-dil ötüb
Bir-biriylə dalaşdı.
Bu acı müsibətin
Yükün çəkmək asanmı?
Dalğalar şahə qalxdı
Sahili yudu, yaxdı
Günah böyük günahdı
Sular yumaz bu ahı.
* * *
Payızın son ayıdı...
Şaxta sarmış havanı
Sahildən uzaqlaşdı.
Soyuq skamyalardan
Birinə yaxınlaşdı.
Oturdu...
Oturdu səssiz-səssiz.
Çökdu ...
İnanmadı, gerçəkmi
həyatında olanlar?
Bakının şaxtalı, soyuq küləyi
Yaladı üzünü dəldi ox kimi
Ruhunu çeynədi
olub bitənlər
Talein amansız oyunlarına
Tab gətirə bilmir...
Bu nə idi belə...
Bu acı gözündən getməz bir daha
Bu dərdlə yaşamaq,
Bir ömrü başa vurmaq,
elə asan deyildi...
Neçə aylar bətnində
Bir acı xəyanətin
Meyvəsini daşımaq
elə asan deyildi.
Sakitcə pıçıldadı: - Mən kiməm?
-Bir övlad qatili
Bəs o?
Namuslu bir qızın
Taleilə oynamaq,
Heç nə olmamış kimi,
Onu ortada qoymaq...
* * *
Çox üşüyürdü canı
Özü də anlamırdı,
ruhundakı üsyanı
Sanki yuxudaydı,
bu donmuş vücud
Sanki onun deyildi
Dönüb arxaya baxmaq
Ona yaman çətindi
Xəyanətin bədəli
Ona ağır gəlmişdi
Bətnindəki körpənin
Hələ doğulmamışdan
O, hökmünü vermişdi:
"Xəyanətin meyvəsi
Mənə övlad olmasın
O, vəfasız oğlanın
Nişanəsi qalmasın"
Durub evinə getsə
Bitəcəkmi acılar
Ağlında fırlatdığı
O, bitməyən suallar
Vicdanın qarşısında
Veriləın imtahanlar...
Bu ruhun ərməğanı
Bitməyən sualların
Cavabını kim verər
Həyat bir imtahandır!
Ömür bir imtahandır!
Vicdanın tənəsindən
Qaçıb qurtarmaq çətin
O içində qaynayan,
Daşan acı nifrətin
Varlığında uyuyan
Bu acı fəlakətin
Bir ana əlləriylə
Ölümə sürüklənən
Nifrətə qurban gedən,
Lazımsız əşya kimi
Gözləri baxa-baxa
Balıqlara yem gedən
O dilsiz körənin nəydi günahı?
* * *
Sözü uzatmağın nə mənası var...
Nə dünya donunu dəyişən deyil,
Nə zaman geriyə qayıdan deyil
Peşiman deyildi
bizim Şahnabat.
Qürur varlığını alıb ağzına
Gözləri zillənib
mavi bir sonsuzluğa...

Bəni Adəm! Budur dünya,
Sərvətinə tapındığın,
var qüvvənlə sarıldığın,
fani dünya...
İnandığın, güvəndiyin,
heç nə olmamış kimi
bir gün yolun dəyişər,
Ömrü fəda elədiyin
səni başqasına dəyişər,

Şahnabat döndü evə
Həyat onun gözündə
Bir cəhənnəm əzabı
Xəyanətin bədəli
yaman ağır olurmuş
Xəyanətə uğrayan yaşamaqdan doyurmuş.
Sinəsində aramsız çırpınsa da ürəyi
Bu həyatda yox idi onun bircə gərəyi.
Həyatsa davam edir.

İllər ötdü...
Yaş üstə neçə-neçə yaş gəldi.
Yoruldu yaşamaqdan
Gözlərində, üzündə yox gülüşdən əlamət
Ətrafa sıçratmadı qəmini, kədərini
Qəlbinə məhkum etdi o bir ömür dərdini
Nə sual var, nə cavab
Olan bitən nə varsa gözlərimin gördüyü
Danışdım sətir-sətir
Bu görünən tərəfi
Fəqət insan - bir aləm
Varaqlara sığarmı onun çəkdiyi ələm,
Varaqlara sığarmı onun çəkdiyi ahlar,
Varaqlara sığarmı yuxusuz gecələrdə
Yasdığını isladan, gözündən axan yaşlar,
Varaqlara sığarmı gözlərindən oxunan,
Bütün ömrü boyunca vicdanını ağrıdan
Günahlar, imtahanlar,
sağalmayan yaralar
Burda nöqtə qoyacam,
Fəqət bitməz acılar,
nə qədər ki, insan var!

***Bakı, Gəncə, Göygöl***
***2018-2021***